“TƏSDİQ EDİRƏM”
Bakı Slavyan Universitetinin rektoru
Anar Nağıyev__________________

“____” ________________ 2026-cı il

# BAKI SLAVYAN UNİVERSİTETİNİN MÜSABİQƏ KOMİSSİYASININ ƏSASNAMƏSİ

Bakı Slavyan Universitetinin Elmi Şurasının 23 yanvar 2026-cı il tarixli iclasında (protokol № 06 ) qəbul edilmişdir.

BAKI- 2026

## 1. Ümumi müddəalar

1.1. Müsabiqə komissiyasının Əsasnaməsi (bundan sonra Əsasnamə) Bakı Slavyan Universitetinin (bundan sonra BSU) rektorunun 10.06.2025-ci il tarixli 56 nömrəli əmrinin icra edilməsi məqsədi ilə hazırlanmışdır və Müsabiqə komissiyasının (bundan sonra Komissiya) fəaliyyətini tənzimləyir.

1.2. Komissiya BSU-da professor-müəllim heyətinə, həmçinin dekan, kafedra müdiri və digər inzibati vəzifələrə layiqli kadrların seçilməsinə dəstək məqsədi ilə BSU rektorunun 06.12.2024-cü il tarixli 116 nömrəli əmri ilə yaradılmışdır.

1.3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununu, BSU Nizamnaməsini, digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

## 2. Komissiyasının təşkili

2.1. Komissiyanın tərkibi BSU əməkdaşlarından formalaşır. Komissiya sədr, sədr müavini və üzvlərdən ibarətdir. Komissiyaya sədr rəhbərlik edir.

2.2. Komissiyanın tərkibi BSU rektorunun əmri ilə təsdiqlənir.

## 3. Komissiyanın əsas məqsədi

3.1. Universitetin layiqli və peşəkar kadrlarla təmin edilməsini, habelə yeni şəxslərin işə götürülməsi və müqavilə müddəti başa çatmış əməkdaşlarla əmək münasibətlərinin yenilənməsi qanunvericiliyin tələblərinə uyğun olaraq obyektiv və kollegial formada həyata keçirir.

## 4. Komissiyanın əsas vəzifələri

4.1. Bakı Slavyan Universitetində inzibati heyətin və professor-müəllim heyətinin işə qəbulu, seçilməsi və işdən azad edilməsi prosedurlarının qanunvericiliyə uyğun olaraq təşkili və müvafiq qurumların fəaliyyətinə nəzarətin həyata keçirilməsi.

4.2. İşlə əlaqədar Universitetə müraciət edən şəxslərin sənədlərinin yoxlanılması, müvafiq ilkin müsabiqələrin keçirilməsi və işə qəbul edilib-edilməməsi ilə əlaqədar rəhbərliyə və seçkili vəzifələr üçün müvafiq fakültə şurasına uyğun

təkliflərin hazırlanıb verilməsi.

4.3. Müqavilə müddəti başa çatmış işçilərin müqavilələrinin yenilənməsinin qanunvericiliyin tələblərini gözləməklə məqsədəuyğunluğu məsələlərinə baxılması.

4.4. Komissiyanın fəaliyyətinin BSU-nun digər struktur bölmələri ilə, xüsusən İnsan Resursları şöbəsinin fəaliyyəti ilə əlaqələndirilməsi.

4.5. Komissiyanın səlahiyyətlərinə dair məsələlər üzrə Universitetə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması.

4.6. Komissiyanın səlahiyyətinə dair digər məsələlərin həlli.

## 5. Komissiyanın hüquqları

5.1. Bu Əsasnamədə nəzərdə tutulan fəaliyyətləri təmin etmək üçün lazım olan məlumat və sənədləri Universitetin struktur bölmələrindən almaq.

5.2. Əmək qanunvericiliyinin tələblərinin gözlənilməsi və digər zəruri məsələlərlə əlaqədar olaraq Universitetdə çalışan vəzifəli şəxslərdən və əməkdaşlardan izahat almaq.

5.3. Universitetə işə qəbul olunmaq istəyənlərin tutacağı vəzifəyə uyğunluğu, müqavilə müddəti başa çatmış əməkdaşların vəzifəsini davam etdirə bilməsi və ya müsabiqəyə buraxılmasının məqsədəuyğunluğu ilə əlaqədar qərar vermək.

5.4. İşçilərin attestasiyasının keçirilməsi ilə bağlı rektora təkliflər vermək.

5.5. Seçkili vəzifələrə nəzarət məqsədi ilə fakültə elmi şuralarında iştirak etmək.

5.6. Vakant vəzifələrə elan verilən zaman namizədlər üçün qanunvericiliyin normaları nəzərə alınmaqla əlavə tələblər müəyyən etmək.

## 6. Komissiyanın fəaliyyətinin təşkili

6.1. Komissiyanın hüquq və vəzifələrinə aid edilən məsələlər Komissiya üzvlərinə və Komissiyanın sədrinə çatdırılır və məsələlərə baxılması üzrə iş planı hazırlanır.

6.2. Komissiyanın qərarları tövsiyə xarakteri daşıyır.

6.3. Komissiyanın işinin icrasına nəzarəti BSU-nun rektoru həyata keçirir.

6.4. Komissiya üzvləri arasında vəzifə bölgüsü komissiya sədri tərəfindən aparılır.

6.5. Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə görə əsas məsuliyyəti komissiya sədri daşıyır.

6.6. Komissiya sədri olmadıqda, onun səlahiyyətlərini rektorun göstərişi əsasında komissiya üzvlərindən biri həyata keçirir.

**7. Komissiya iclaslarının keçirilmə qaydaları**

7.1. Komissiyanın sədri iclasları təşkil edir və iclaslara rəhbərlik edir.

7.2. Komissiya iclasları üzvlərin üçdə iki hissəsi iştirak etdikdə keçirilir.

7.3. Komissiya üzvlərinin iclaslarda iştirakı qeydiyyata alınır.

7.4. Komissiya iclaslarının gedişatı protokollaşdırılır.

**8. Professor-müəllim heyəti üçün sənəd qəbulu zamanı qiymətləndirmə meyarları:**

**8.1. Professor vəzifəsinə seçki üzrə qiymətləndirmə meyarları:**

8.1.1. Elmi fəaliyyət:

AAK tələblərinə uyğun:

-beynəlxalq və nüfuzlu elmi jurnallarda dərc olunmuş fundamental elmi əsərlər;

-monoqrafiyalar, dərsliklər və ya elmi konsepsiya xarakterli məqalələr və tezislər;

- elmi sitat indeksləri və elmi təsir göstəriciləri.

Elmi rəhbərlik və elmi məktəb:

- fəlsəfə doktoru və ya elmlər doktoru dissertasiyalarına elmi rəhbərlik;

8.1.2. Pedaqoji fəaliyyət

- ali təhsil müəssisəsində uzunmüddətli və səmərəli pedaqoji fəaliyyət;
- mühazirələrin yüksək elmi-nəzəri səviyyədə aparılması;

8.1.3. Elmi-metodik və təşkilati fəaliyyət

- dərslik və fundamental tədris vəsaitlərinin müəllifi olmaq;
- universitet, respublika və beynəlxalq səviyyədə elmi şuralarda, redaksiya heyətlərində iştirak;
- elmi konfrans və simpoziumların təşkili və idarə olunması.

8.1.4. Akademik dürüstlük

- plagiat faktlarının olmaması;
- elmi etikaya və müəlliflik hüquqlarına riayət edilməsi;
- elmi nəşrlərin şəffaf və dürüst qaydada hazırlanması.

8.2. **Dosent vəzifəsinə seçki üzrə qiymətləndirmə meyarları:**

8.2.1. Elmi fəaliyyət:

- AAK tələblərinə uyğun olaraq:
- nüfuzlu elmi jurnallarda dərc edilmiş elmi məqalələr;
- beynəlxalq və respublika səviyyəli elmi konfrans materialları;
- elmi tədqiqat mövzusunun ixtisasla uyğunluğu;
- elmi nəticələrin aktuallığı və praktik əhəmiyyəti.

8.2.2. Pedaqoji fəaliyyət:

- ali təhsil müəssisəsində ən azı 3 il pedaqoji fəaliyyət təcrübəsi;
- mühazirə və seminarların yüksək səviyyədə aparılması;

- tələbəyönümlü və müasir təlim metodlarından istifadə;
- tədris fənləri üzrə proqram və sillabusların hazırlanmasında iştirak.

8.2.3. Elmi-metodik və təşkilati fəaliyyət:
- dərs vəsaitlərinin, metodik göstərişlərin hazırlanması;
- kafedra və fakültə səviyyəsində elmi-metodik işlərdə iştirak;
- elmi tədbirlərin (seminar, konfrans və s.) təşkilində fəallıq.

8.2.4. Akademik dürüstlük:
- plagiat faktlarının olmaması;
- elmi etikaya və müəlliflik hüquqlarına riayət edilməsi;
- elmi nəşrlərin şəffaf və dürüst qaydada hazırlanması.

8.3. **Baş müəllim vəzifəsinə seçki üzrə qiymətləndirmə meyarları:**

8.3.1. Elmi fəaliyyət:
- ən azı dərc edilmiş 5 elmi məqalə;
- beynəlxalq və ya respublika elmi konfrans materialları;

8.3.2. Pedaqoji fəaliyyət:
- ali təhsil müəssisəsində ən azı 5 il pedaqoji fəaliyyət təcrübəsi;
- Dərslərin yüksək səviyyədə aparılması;
- tələbəyönümlü və müasir təlim metodlarından istifadə;

8.3.3. Elmi-metodik və təşkilati fəaliyyət:
- tədris fənləri üzrə proqram və sillabusların hazırlanmasında iştirak;
- kafedra və fakültə səviyyəsində elmi-metodik işlərdə iştirak;

8.3.4. Akademik dürüstlük:
- plagiat faktlarının olmaması;
- elmi etikaya və müəlliflik hüquqlarına riayət edilməsi;

8.4. **Müəllim vəzifəsinə seçki üzrə qiymətləndirmə meyarları:**

8.4.1. Elmi fəaliyyət:
- ən azı dərc edilmiş 4 elmi məqalə;
- beynəlxalq və ya respublika elmi konfrans materialları;

8.4.2. Pedaqoji fəaliyyət:
- Dərslərin yüksək səviyyədə aparılması;
- tələbəyönümlü və müasir təlim metodlarından istifadə;

8.4.3. Elmi-metodik və təşkilati fəaliyyət:
- tədris fənləri üzrə sillabusların hazırlanmasında iştirak;

8.4.4. Akademik dürüstlük:
- plagiat faktlarının olmaması;
- elmi etikaya və müəlliflik hüquqlarına riayət edilməsi;

8.5. **Komissiya bu Əsasnamənin 8-ci bəndində qeyd olunmuş tələblərin** də müvafiq vakant vəzifəyə seçki elanı zamanı qeyd olunmasına və yalnız tələblərə uyğun namizədlərin seçkiyə buraxılmasına nəzarət edir.

## 9. Yekun müddəalar

9.2. Bu Əsasnamə BSU Elmi Şurasında qəbul edilir və BSU rektoru tərəfindən təsdiqlənir.

9.3. Bu Əsasnaməyə əlavə və dəyişikliklər BSU-nun Elmi Şurasında razılaşdırılmaqla edilə bilər.

9.4. Bu Əsasnamə Komissiyanın fəaliyyəti dövründə qüvvədədir.

**Təqdim etdi:** **Fikrət Cahangirov**
**Tədris məsələləri üzrə prorektor**

**Razılaşdırıldı:** **Nərmin Əskərova**
**BSU-nun hüquqşünası**